RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 198 (8221) ÇƏRŞƏNBƏ AXŞAMI, 10 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# 133 ölkə, 1 milyard 336 milyon dollarlıq sifariş

## Dünya bazarında “Made in Azerbaijan” brendinə tələbat yüksəldikcə ixrac sifarişi artır, çeşid çoxalır, coğrafiya genişlənir

**Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində görülən işlər, xüsusən də Prezident İlham Əliyevin iqtisadi islahatlar paketi çərçivəsində qəbul etdiyi qərarlar ölkəyə həm siyasi, həm də iqtisadi dividendlər qazandırmaqdadır. Həyata keçirilən islahatlar geniş vüsət aldıqca Azərbaycanın dünyanın əksər ölkələri ilə ticarət dövriyyələri artır. Bunun müqabilində yeni ticarət müqavilələri bağlanır. Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə intensiv tədbirlər həyata keçirilir, xarici ölkələrdə ticarət evləri açılır, ardıcıl olaraq ixrac missiyaları təşkil edilir, nüfuzlu beynəlxalq sərgilərdə Azərbaycan şirkətlərinin iştirakı təmin olunur.**

### 7 ayda 12,3 milyard dollarlıq ixrac

Statistik göstəricilərə nəzər yetirsək görərik ki, “Azexport” portalının fəaliyyəti sayəsində ixrac edilən məhsulların həm coğrafiyası, həm də çeşidi getdikcə artır. Məsələn, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın 2019-cu ilin avqust sayında göstərilir ki, son 7 ay ərzində Azərbaycanın ixracı 12,3 milyard dollar təşkil edib və ötən ilin müvafiq dövrünə nisbətən 1,5 milyard dollar və ya 14 faiz artıb.

Bu müddətdə qeyri-neft sektoru üzrə 1 milyard 133 milyon dollar dəyərində ixrac reallaşdırılıb. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 7 ayında qeyri-neft sektoru üzrə ixrac 164 milyon dollar və ya 17 faiz artıb.

Yanvar-iyul ayları ərzində Rusiyaya 395,9 milyon, Türkiyəyə 251,2 milyon, Gürcüstana 100,4 milyon, İsveçrəyə 88,3 milyon və İtaliyaya 32,4 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 7 ayında Rusiyaya qeyri-neft ixracı 12 faiz, Türkiyəyə 17 faiz, Gürcüstana 23 faiz, İsveçrəyə 13 faiz və İtaliyaya 2,4 dəfə artıb.

### İxracatda pomidor liderliyini qoruyur

İlin 7 ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (141,2 milyon dollar) liderliyini qoruyub. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 85 milyon dollar) ikinci, pambıq mahlıcı (82,2 milyon dollar) üçüncü yerdə qərarlaşıb.

Ümumiyyətlə, 2019-cu ilin 7 ayı ərzində meyvə-tərəvəz ixracı 345,3 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 119,4 milyon, pambıq lifi ixracı 83 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 62,8 milyon, kimya sənayesi məhsullarının ixracı 57,2 milyon, elektrik enerjisinin ixracı 56,5 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 37,6 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 17,4 milyon, pambıq ipliyi ixracı 17,3 milyon, şəkər ixracı 16,5 milyon dollar təşkil edib.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə yanvar-iyul aylarında pambıq lifinin ixracı 83,6 faiz, alkoqollu və alkoqolsuz içkilərin ixracı 2,1 dəfə, kimya sənayesi məhsullarının ixracı 40,9 faiz, pambıq ipliyinin ixracı 39,5 faiz, plastmas və onlardan hazırlanan məmulatların ixracı 50,6 faiz, meyvə-tərəvəzin ixracı 14,6 faiz, şəkər ixracı 10,7 faiz artıb.

2019-cu ilin iyul ayında isə qeyri-neft sektoru üzrə ixrac 154 milyon ABŞ dolları təşkil edib. 2018-ci ilin iyul ayı ilə müqayisədə 2019-cu ilin iyul ayında qeyri-neft sektoru üzrə ixrac 32 milyon ABŞ dolları və ya 26 faiz artıb. Cari ilin iyul ayında qeyri-neft-qaz məhsulları ən çox Rusiyaya (41 milyon ABŞ dolları), Türkiyəyə (37,9 milyon ABŞ dolları), İsveçrəyə (14,8 milyon ABŞ dolları), Gürcüstana (14,7 milyon ABŞ dolları) və Yunanıstana (6,1 milyon ABŞ dolları) ixrac edilib.

2019-cu ilin iyul ayında qeyri-neft sektoru üzrə ixracda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 14,7 milyon dollar) birinci, albalı və gilas (12,5 milyon dollar) ikinci, emal olunmamış, aşqarlanmamış alüminium (7,5 milyon dollar) üçüncü olub.

### “Azərkosmos” 7 aya 22 ölkədən 25,5 milyon dollar qazanc əldə edib

“İxrac İcmalı”nda həm də xidmət ixracına yer ayrılıb. Məlumat verilib ki, 7 ayda “Azərkosmos” ASC tərəfindən dünyanın 22 ölkəsinə 25,5 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib.

“Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 89 faizini təşkil edib. 2019-cu ilin iyul ayında isə “Azərkosmos” ASC dünyanın 21 ölkəsinə 6,9 milyon dollar dəyərində xidmət ixrac edib. “Azərkosmos” ASC-nin 2019-cu ilin yanvar-iyul aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr ABŞ, Fransa, Malayziya, Birləşmiş Krallıq, BƏƏ-dir.

*Ardı 4-cü səh.*

# Gürcüstanın Baş Naziri zati-aliləri cənab Giorgi Qaxariyaya

Hörmətli cənab Baş Nazir!

Gürcüstanın Baş Naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı tarixən təşəkkül tapmış dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. İnanıram ki, bu xoş ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz və strateji tərəfdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Gürcüstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 sentyabr 2019-cu il*

# 2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. 2019/2020-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbaszadə Yeganə Sərvər qızı
Abiyeva Nəzrin Vüqar qızı
Ağamalıyev Əli Niyaməddin oğlu
Ağamalıyev Məhəmməd Niyaməddin oğlu
Ağaşov Turqut Rövşən oğlu
Ağayev Mirkazım Nemət oğlu
Ağazadə Ləman Elnur qızı
Axundzadə Abdulla Elxan oğlu
Axundzadə Rəvan Qədir oğlu
Alıyev Toğrul Ayaz oğlu
Alpaşayev Rəşad Kazım oğlu
Aslanova Nərgiz İbrahim qızı
Azadlı Rəşad Namiq oğlu
Babayev Elnur Nazim oğlu
Babayev Möhsün Kamal oğlu
Babazadə Sadə Vüqar qızı
Bayramlı Turan Sübhan oğlu
Bədəlzadə Rəhim Pərviz oğlu
Bəşirli Fərman Xamiz oğlu
Cavadova Gülşən Habil qızı
Cəfərli Əli Gündüz oğlu
Cəfərli Məleykə Malik qızı
Cəfərli Sevər Elman qızı
Cəfərov Natiq Zəfər oğlu
Eyyub İsmayıl Elçin oğlu
Əhmədli Fərid Əhməd oğlu
Əhmədov Amil Musa oğlu
Əhmədov Nadir Nizami oğlu
Əhmədzadə Jalə Elxan qızı
Əliyev Emin Amil oğlu
Əliyeva Əsmər Bəhruz qızı
Əliyeva Firuzə Fuad qızı
Əlizadə Əmirxan Yasən oğlu
Əlizadə Vüsal Orucəli oğlu
Əsədli Gülçin Ceyhun qızı
Fərəcli Kamaləddin Kamil oğlu
Hacılı Sadiq Əlican oğlu
Hacıyeva Fidan İlfan qızı
Hacızadə Əsmər Natiq qızı
Həbibullayev Rüstəm Laçın oğlu
Həsənli Kamran Rafiq oğlu
Həsənov Eşqin Eyvaz oğlu
Həsənov Sərxan Asif oğlu
Hüseynova Aygün Elyar qızı
Hüseynova Dilarə Səbuhi qızı
Hüseynova Lalə Raqib qızı
Hüseynova Nərmin Fəxrəddin qızı
Hüseynova Seyid Bəyim Əli qızı
Hüseynova Yağmur Azər qızı
Hüseynzadə İnqilab Ağababa oğlu
İbayeva Nəsrin Ağamməd qızı
İsgəndərov İsgəndər Ehtiram oğlu
İsgəndərzadə Aqşin Eldar oğlu
İsmayılov Nicat Vilayət oğlu
İsmayılzadə Nicat Rafiq oğlu
Kazımlı Qəhrəman Rüfət oğlu
Kərimli Yaşar Fərhad oğlu
Qaraxova Günay Məcid qızı
Qaziyeva Cəmilə Ramin qızı
Qədəşova Samilə Xalidşah qızı
Qoçiyev Kənan Vahid oğlu
Quluzadə Fidan Ülfət qızı
Quluzadə Qarakişi İlqar oğlu
Qurbanov Əhməd İlham oğlu
Qurbanov Nicat Hicran oğlu
Qurbanova Elza Nasim qızı
Mahmudlu Kənan Nəbi oğlu
Mehdiyev Murad Mətləb oğlu
Məmmədli Alparslan Dilsuz oğlu
Məmmədov Ayhan Arzu oğlu
Məmmədov Kamran Məclum oğlu
Məmmədov Məzahir Famil oğlu
Məmmədov Pərviz Qədim oğlu
Məmmədova Leyla Vüqar qızı
Məmmədova Mədinə Vilayət qızı
Məmmədova Nəzrin Rövşən qızı
Məmmədova Sevinc İsmayıl qızı
Məmmədtağılı Murad Muxtar oğlu
Muradov Təhmin Hidayət oğlu
Musayev Azər Musa oğlu
Musayeva Arzu Qalib qızı
Nadirov Nail Natiq oğlu
Nəbiyev Samir Rafiq oğlu
Nəcəfli Nigar Firudin qızı
Rəhimli Cavid İlqar oğlu
Rufulla Vüqar Ceyhun oğlu
Rzalı Üsyan Əfqan oğlu
Sadıxova Samirə Araz qızı
Sadıqova Nərmin Əzizxan qızı
Sanılı Yetər Yavər qızı
Səfərəliyeva Jalə Müşfiq qızı
Səfərov Fazil Tərlan oğlu
Səfərov Qorxmaz Seyfəddin oğlu
Səfərzadə Qızbəs Tanrıverdi qızı
Səmədov Şəhriyar Şahin oğlu
Şixəmirli Əsmər Ataş qızı
Şikarov İsmayıl Ramiz oğlu
Tağıyev Taleh Çingiz oğlu
Verdiyeva Nərmin Anar qızı
Vəliyeva Aytən İslam qızı
Yusifli Murad Elşən oğlu
Zeynallı Almaz Ceyhun qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 sentyabr 2019-cu il*

# Sənayenin inkişafında texnoparklar böyük rol oynayır

## Ölkəmiz bu sahədə dünya təcrübəsindən uğurla faydalanır

Dünya sənaye tarixinə nəzər yetirdikdə görürük ki, zaman-zaman onun müxtəlif inkişaf formaları meydana gəlir. Bunlardan biri də texnopark adlanan yeni istehsal və xidmət sahələridir. Ötən əsrin 50-70-ci illərində yeni sənaye birlikləri olan texnoparklar fəaliyyətə başladı. İkinci mərhələ 80-90-cı illəri əhatə etdi, üçüncü mərhələ isə 2000-ci ildən başlayaraq bugünədək davam edir.

Texnoparkların belə mərhələlərlə inkişaf etməsi səbəbsiz deyil. Statistikadan görünür ki, hər 15-20 ildən bir texnoparkların yeni formalarının yüksəliş dövrü başlayır. Bu da bazar və iqtisadiyyatın dəyişkən inkişaf tendensiyası və ümumilikdə cəmiyyətin transformasiyası ilə izah olunur.

Elm və texnologiya parkının birləşməsi konsepsiyası 50-ci illərdə ABŞ-da meydana gəlib. Məqsəd həmin dövrdə texnologiyanın və sənayenin sürətli inkişafının təmin edilməsinə zəmin yaratmaq idi. Beləliklə, texnoparklar tədricən müasir iqtisadiyyatın vacib elementlərindən birinə çevrildi. ABŞ-da başlanan bu təcrübə dünyada sürətlə yayılmağa başladı.

Texnoparklar vahid infrastruktur sərhədlərində elm və texniki fəaliyyətlə məşğul olan şirkətlər birliyidir. Texnopark spesifik yerli şərait və bazarın tələbatının təsiri altında formalaşan mürəkkəb ekosistemdir. Həmin sənaye birlikləri bir tərəfdən rezident və müştərilərin görüşdüyü və təmasda olduqları ofis, digər tərəfdən rezidentlərə göstərilən müxtəlif xidmətlər sistemidir. Əslində texnopark tədqiqatçı qruplar və texnoloji işləmələrə sorğu verən şirkətlər arasında qarşılıqlı fəaliyyət və informasiya mübadiləsi prosesini sürətləndirən vasitəçi bir qurumdur. Həmin qurum innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədilə elmi tədqiqatların və təcrübə-konstruktur işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi üçün zəruri infrastrukturu, eləcə də maddi-texniki bazası və idarəetmə qurumları olan ərazidir.

Texnoparklar daha geniş yayılmış üç iş sxeminə malikdir. Birincisi öz innovasiya layihələrini realizə etmək istəyən sərbəst tədqiqat və layihə qruplarına yardım etmək, ikincisi ali məktəb və elmi-tədqiqat qruplarında olan elmi biliklərin kommersiyalaşdırılmasına kömək göstərməkdir. Üçüncüsü isə innovasiyanın sərbəst bazarında texnoloji qərarların idxalı yolu ilə texnoloji məsələlərin həllinə nail olmaqdır. Beləliklə, texnoparkların bu üç istiqamət üzrə hərəkəti bütün tərəfləri qane edir.

Texnoparklar texnologiya daşıyıcıları ilə alıcıları arasında əlaqə qurmaq üçün yaranan sərbəst qurumdur. Bununla yanaşı, texnoparkların yaradılmasında əsas motiv texnologiyaların təchizatında və istifadəsindədir.

*Ardı 4-cü səh.*

# Əli HƏSƏNOV: “Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə əməkdaşlığa açıqdır”

Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyasının (YAP) rəhbərliyində təmsil olunan Eldar İbrahimovun adından dünən yayılan açıqlama sosial şəbəkələrdə və ictimai rəydə müəyyən anlaşılmazlığa səbəb olub.



Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, həm də YAP rəhbərliyində təmsil olunan şəxs kimi bəyan edirəm ki, həm partiyamızın, həm də mövcud iqtidarın bu məsələyə münasibəti ümummilli lider, dövlətimizin və partiyamızın qurucusu Heydər Əliyev tərəfindən müəyyən edilib və bu gün də dəyişməz olaraq qalır.

Bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Facebook sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.

Prezidentin köməkçisi bildirib: “Xatırladıram ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan ziyalılarının 1992-ci ildə mətbuat vasitəsilə ona ünvanladığı müraciətinə verdiyi cavab yeni siyasi hərəkatın və bu hərəkatın avanqard qüvvəsi olan YAP-ın manifesti olaraq qəbul edilib və həmin manifestdə ifadə olunmuş prinsip və meyarlar bu gün də siyasi fəaliyyətimizin əsas kredosunu təşkil etməkdədir. Heydər Əliyevin ziyalılara 1992-ci ildə ünvanlandığı həmin müraciət əslində, sadəcə, yeni bir siyasi partiyanın deyil, quruculuğuna başladığımız müstəqil dövlətin gələcək siyasi-ideoloji proqramı idi.

Müraciətdə Ümummilli Lider Azərbaycanın bütün sağlam qüvvələrini vahid dövlətçilik və azərbaycançılıq ideyaları ətrafında birləşərək gənc, müstəqil və yeni Azərbaycan dövlətinin quruculuğuna öz töhfəsini verməyə səsləyirdi.

Hakimiyyətdə olduğu bütün müddət ərzində Ümummilli Lider həmişə birlik və həmrəylik ideyasına sadiq qalmış, ölkədə vətəndaş sülhü, milli birlik naminə, Azərbaycan dövlətçiliyinə xidmət etmək istəyən, hər hansı idarəçilik və intellektual keyfiyyətləri olan insanların YAP-da və YAP-ın qurduğu iqtidar komandasında təmsil olunmasına şərait yaratmışdır. Azərbaycan tarixində həm də senzuranı ləğv etmiş rəhbər kimi Ümummilli Lider fərqli siyasi qüvvələrin parlamentdə birgə təmsilçiliyini, siyasi plüralizm və söz azadlığını müasir inkişafın labüd bir prinsipi olaraq qəbul etmiş, ümummilli məsələlərin siyasi opponentlərlə birgə müzakirəsini, bütün məsələlərin həlli naminə hər kəslə açıq dialoqu və əməkdaşlığı vacib saymışdır.

Belə dövlətçi-azərbaycançı yanaşma, milli həmrəyliyə sədaqət Ümummilli Liderin siyasi irsinin davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə də ardıcıl olaraq davam etdirilir. İlham Əliyev ilk dəfə Prezident seçildiyi 2003-cü ildə səsləndirdiyi “Mən bütün azərbaycanlıların Prezidentiyəm” açıqlaması ilə həmin prinsiplərin onun üçün də dəyişməz olduğunu ortaya qoymuşdur.

Bir daha qeyd edirəm ki, bu prinsiplər dəyişməzdir, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə dialoqa və əməkdaşlığa açıqdır, öz siyasi rəqiblərini düşmən hesab etmir və onlarla ümummilli məsələlərlə bağlı müzakirə və əməkdaşlığı məqbul sayır. Eldar İbrahimovun adından yayılmış məlum fikirlər isə YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir”.

# Tariximizin xanlıqlar dövründən bəhs edən kitab Moskvada nəşr olunub

Görkəmli Azərbaycan alimi, akademik Ramiz Mehdiyevin “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabı Moskvada nəşr olunub. Kitab Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən nəşrə hazırlanıb.



Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, kitabda Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən olan qədim xanlıqlar dövrünün indiyədək tarixşünaslığa gizli qalan həqiqətləri üzə çıxarılmaqla yanaşı, ciddi elmi mübahisələrə səbəb olan bir sıra qaranlıq məqamlara aydınlıq gətirilir, hadisələr və tarixi şəxsiyyətlər elmi faktlar və arxiv sənədləri əsasında işıqlandırılır.

Əsərin rus dilinə tərcüməçisi Püstə Axundova, mətnlərə dair şərh və qeydlərin müəllifi siyasi elmlər üzrə fəlsəfə doktoru Eldar Əmirov, arxiv sənədlərinin fars dilindən tərcüməçisi AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktor müavini Şahin Yəhyayev, redaktorları Nadiyə Qafarova və Fərrux Rzayevdir.

Kitab tarixçilər və mənbəşünaslar, eləcə də Azərbaycanın qədim tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün qiymətli elmi mənbədir.

# Baş Nazirin müavini Əli Həsənov Rusiyanın Azərbaycandakı səfiri ilə görüşüb



Nazirlər Kabineti mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 9-da Baş Nazirin müavini Əli Həsənov Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu qəbul edib.

Səfir, Baş Nazirin müavininə Rusiya Federasiyası Baş Nazirinin müavinin məktubunu çatdıraraq 2020-ci ildə Rusiyada keçiriləcək ekoloji məsələləri özündə əks etdirən növbəti maarifləndirmə və humanitar layihədə Azərbaycan tərəfinin də iştirakının məqsədəuyğun olacağını bildirib.

Baş Nazirin müavini Əli Həsənov görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əhalinin sosial-iqtisadi vəziyyətinin, həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində atdıqları qətiyyətli addımlar barədə qonağa geniş məlumat vermiş, həmçinin Azərbaycanın bütün istiqamətlərdə, o cümlədən sosial-iqtisadi sahədə dinamik inkişafını müvəffəqiyyətlə davam etdirən tolerant bir ölkə olduğunu səfirin diqqətinə çatdırmışdır.

Görüşdə eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hazırkı durum, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Azərbaycan ilə Xorvatiya arasında siyasi əlaqələr yaxşı səviyyədədir

Sentyabrın 9-da Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Xorvatiya Respublikası parlamentinin Xorvatiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsi baxımından bu səfərin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, Azərbaycanla Xorvatiya arasında siyasi əlaqələr yaxşı səviyyədədir, əməkdaşlığa dair 25-ə yaxın sənəd imzalanıb, xüsusilə 2013-cü ildə imzalanmış strateji tərəfdaşlığa dair sənəd bir çox sahələri əhatə edir. Birinci vitse-spiker deyib ki, inkişaf etməkdə olan ticari-iqtisadi əlaqələrimizin gücləndirilməsi üçün kifayət qədər potensial var. Gələn il Azərbaycanla Xorvatiya arasında diplomatik münasibətlərin qurulmasının 25 ili tamam olacaq.

Görüşdə Xorvatiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Lyubitsa Maksimçuk təmsil etdiyi parlamentin adından deyib: “Biz bütün sahələrdə Azərbaycanla əlaqələri genişləndirmək arzusundayıq. Parlamentlərarası əməkdaşlığın möhkəmlənməsi üçün qarşılıqlı səfərlərin intensivləşməsini vacib sayırıq”. Xanım Maksimçuk ikitərəfli münasibətlərin möhkəmlənməsində hər iki ölkənin dövlət başçılarının rolunu xüsusi qeyd edib.

Sonra nümayəndə heyətinin üzvləri fikirlərini bölüşüblər. Qonaqlar Bakının inkişaf tempinə, burada gördükləri tikinti-quruculuq işlərinə heyranlıqlarını bildiriblər.

# Lyubitsa MAKSİMÇUK: “Azərbaycan Xorvatiya üçün vacib strateji tərəfdaşdır”

Sentyabrın 9-da Milli Məclisin Xorvatiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri və Xorvatiya Parlamentinin Azərbaycanla dostluq qrupunun nümayəndələri arasında görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, Xorvatiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yaqub Mahmudov belə görüşlərin münasibətlərin dərinləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini söyləyib. Qeyd edilib ki, Azərbaycan və Xorvatiya oxşar tarixi keçmişə malikdir. Xalqlarımız azadlıq uğrunda mürəkkəb yol keçiblər. Bu gün ölkələrimiz arasında əlaqələr yüksək səviyyədə inkişaf edir. İqtisadi, sənaye, kənd təsərrüfatı, gəmiqayırma sahələrində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur.

Bildirilib ki, dövlətlərimiz arasında münasibətlərin inkişaf etdirilməsində parlamentlər xüsusi rol oynayır. Hər iki parlamentdə dostluq qrupları fəaliyyət göstərir. Qanunverici orqanlar arasında əlaqələrin möhkəmlənməsində deputatların qarşılıqlı səfərləri önəmli yer tutur. Beynəlxalq təşkilatlar çərçivəsində də nümayəndə heyətlərinin səmərəli əməkdaşlığı vacib məsələlərdəndir.

Diqqətə çatdırılıb ki, bu gün sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi ağrılı problemi var. Biz suverenlik və ərazi bütövlüyümüzün bərpası yolunda mübarizə aparırıq. Bu mübarizədə Xorvatiyanın Azərbaycanı dəstəkləməsi təqdirəlayiqdir.

Xorvatiya Parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Lyubitsa Maksimçuk səmimi görüşə görə minnətdarlığını ifadə edib. Qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsinə töhfə verdiyini söyləyib. Bildirilib ki, ölkələrimiz arasında dostluq münasibətləri yüksək səviyyədə inkişaf edir. Azərbaycan Xorvatiya üçün vacib strateji tərəfdaşdır.

Qonaq Azərbaycanda müşahidə etdikləri inkişafı yüksək qiymətləndirib. Bildirib ki, onun ölkəsi Qafqazın bu bölgəsi ilə iqtisadi, mədəni əlaqələrin dərinləşməsinə böyük əhəmiyyət verir.

Görüşdə Xorvatiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Vahid Əhmədov və Məlahət İbrahimqızı çıxış edərək ikitərəfli əməkdaşlığın inkişafı barədə fikirlərini bildiriblər.

# ICAPP-ın Gənclər və Qadınlar qollarının Bakıda keçirilən iclaslarında yekun bəyannamələr qəbul edilib

Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (ICAPP) Gənclər və Qadınlar qollarının Bakıda keçirilən iclaslarında yekun bəyannamələr qəbul edilib.

Yeni Azərbaycan Partiyasından AZƏRTAC-a verilən məlumata görə, Bakı Bəyannaməsi adlanan bu sənədlər Asiya regionunda və beynəlxalq səviyyədə gənclərin və qadınların ictimai-siyasi həyatda rolunun gücləndirilməsinə, onları narahat edən problemlərin həllinə diqqəti cəlb edir.

Bəyannamədə qeyd olunur ki, hazırda dünyada yaşayan 1,5 milyard gəncin 90 faizi inkişafda olan ölkələrin sakinləridir. Asiya regionunun müxtəlif bölgələrində yaşayan gənclərin önəmli bir hissəsi informasiya texnologiyaları, iş, təhsil, səhiyyə və təlimlərdən faydalanmaqda, inkişaf strategiyaları ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında iştirak imkanlarından istifadə etməkdə maneələrlə üzləşir. Bildirilir ki, inkişaf etməkdə olan ölkələrdə yaşayan gənclərin 20 faizi keyfiyyətli təhsil, təlim və iş şəraitindən məhrumdur. Yetkin insanlar arasındakı işsizlik səviyyəsindən iki dəfə yüksək olan gənclər arasındakı işsizliyi hətta indiki yüksək səviyyədə saxlamaq üçün belə hər ay 5 milyon yeni iş yeri açılmalıdır. O da qeyd edilir ki, əhalinin 65 faizinin yaşı 35-dən aşağı olduğu halda, siyasətdə təmsil olunanların cəmi 6 faizi 35 yaş həddinə daxildir, bu isə gənclərin siyasi fəallığının artırılmasına ehtiyac olduğunu göstərir.

Bakı Bəyannaməsində, həmçinin səmərəli gənclər siyasətinin formalaşdırılmasında mühüm amil olan etibarlı məlumatların toplanması üçün siyasi partiyalar arasında beynəlxalq əməkdaşlığın əhəmiyyəti vurğulanır. Bəyannamədə qadın və qızların da müxtəlif cəmiyyətlərdə üzləşdikləri problemlərə, gender məsələlərinə, qadınlar arasında işsizlik, təhsil problemlərinə diqqət cəlb olunur. Həmçinin gənclərə və qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizəyə çağırış edilir.

Qeyd olunur ki, qadınlar və gənclər arasında işsizlik, aclıq, yoxsulluğun azaldılması üçün dövlət qurumlarının və siyasi partiyaların üzərinə müəyyən vəzifələr düşür. Bildirilir ki, qadınların və gənclərin sosial, iqtisadi problemlərinin həlli, onların qərarvermə prosesinə və idarəçiliyə cəlb olunması BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə dair 2030-cu il Gündəliyinin tələblərinə də uyğundur.

Bakı Bəyannaməsində əksini tapan ən önəmli müddəalardan biri isə gənclərin və qadınların xarici işğal, silahlı münaqişələr və terrorçuluqdan müdafiəsi üçün müvafiq addımların atılmasına edilən çağırışdır. Bundan başqa, Asiya qitəsində hazırda davam edən münaqişələr, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə uyğun həllinə çağırış edilir.

Bəyannamədə, həmçinin Gənclər Qolunun 5-ci iclasının və Qadınlar Qolunun 6-cı iclasının uğurlu təşkilinə görə Yeni Azərbaycan Partiyasına, qonaqpərvərliyə görə Azərbaycan xalqına və bu tarixi toplantılara verdiyi dəstəyə görə Təşkilat Komitəsinin sədri, Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədova minnətdarlıq ifadə olunur.

# Bakıda İndoneziyanın müstəqilliyinin 74-cü ildönümü qeyd olunub

Sentyabrın 9-da İndoneziyanın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin 74-cü ildönümü ilə əlaqədar rəsmi qəbul təşkil edib. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Qəbulda çıxış edən səfir Hüsnan Bəy Fənani İndoneziyanın keçdiyi inkişaf yolundan danışıb.

Ölkələrimiz arasındakı əlaqələrdən bəhs edən səfir münasibətlərimizin son illərdə daha da inkişaf etdiyini deyib. Əlavə edib ki, İndoneziya Azərbaycanı özünə dost və tərəfdaş hesab edir. Siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir. İndoneziya və Azərbaycan arasında yüksəksəviyyəli səfərlər təşkil olunur.

Səfir vurğulayıb ki, Azərbaycanın müstəqilliyinin bərpasından ötən 28 ildə ölkələrimiz arasında əməkdaşlıq genişlənib və bu gün də sürətlə inkişaf edir. O, İndoneziya iş adamlarının Azərbaycana mütəmadi səfərlərini xatırladaraq bildirib ki, indoneziyalı investorlar ölkəmizdə iş qurmaqda maraqlıdırlar.

Hüsnan Bəy Fənani ölkələrimiz arasında münasibətlərin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin əvəzsiz xidmətlərini də diqqətə çatdırıb.

Diplomat qeyd edib ki, İndoneziya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. O əlavə edib ki, hər iki ölkə terrorçuluğa qarşı əməkdaşlığı daha da inkişaf etdirməlidir. Kənd Təsərrüfatı naziri İnam Kərimov rəsmi qəbulda çıxış edərək Azərbaycan hökuməti adından İndoneziya xalqını əlamətdar gün münasibətilə təbrik edib. Bildirib ki, son 28 ildə ölkələrimiz arasındakı münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir.






İndoneziya ilə Azərbaycan arasında mövcud iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan nazir əlavə edib ki, Azərbaycanın reallaşdırdığı BTQ dəmir yolu beynəlxalq platformada önəmli layihədir. İ.Kərimov İndoneziyanın da bu mühüm layihəyə qoşulacağına əmin olduğunu bildirib.

Nazir vurğulayıb ki, İndoneziya səfirliyi son iki ildə ölkəmizdə müxtəlif mədəniyyət festivalları keçirir. Bu isə xalqlarımız arasında əlaqələrin güclənməsinə təkan verir.

İnam Kərimov ölkələrimiz arasında münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

# Azərbaycan Ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır









Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ağcabədi rayonu ərazisindəki "N" nömrəli hərbi hissədə əsgər və zabitlərlə görüş keçirilib.



Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Tahir Rzayev, Rauf Əliyev, Ağcabədi və Laçın rayon icra hakimiyyətlərinin başçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əsgər və zabitlər qarşısında çıxış edən Baş Nazirin müavini Əli Əhmədov Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyətdən, silahlı qüvvələrə göstərilən diqqət və qayğıdan söz açıb. Bildirib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından birinə çevrilib.

"Ordumuzun gücü təkcə onun malik olduğu silahlarda, hərbi sursatlarda deyil. Ordumuzun daha möhtəşəm güc mənbəyi əsgərlərimizin qəhrəmanlığında, yüksək döyüş ruhunda olmasındadır. Azərbaycan xalqı, dövləti daim öz əsgərinin yanındadır. Biz ordumuzla qürur duyur, fəxr edirik. Əminik ki, Silahlı Qüvvələrimiz Vətənimizin müstəqilliyinin və dövlətçiliyimizin keşiyində əzmlə dayanıb. Azərbaycan Ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır. Biz dövlətimizin, xalqımızın və ordumuzun iradəsini birləşdirərək, torpaqlarımızı işğaldan azad etmək kimi şanlı vəzifəni yerinə yetirməyə nail olacağıq", - deyə Ə.Əhmədov söyləyib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesindən də bəhs edən Baş Nazirin müavini deyib: "Azərbaycan münaqişənin qan tökülmədən həllinə çalışır və danışıqlar prosesi aparılır. Doğrudur, danışıqlar prosesi uzanır. Biz dəfələrlə bununla bağlı mövqeyimizi ən yüksək səviyyədə ifadə etmişik. Aparılan siyasət ondan ibarətdir ki, qan tökülmədən, itkilərə yol vermədən Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını təmin edək. Azərbaycan tərəfinin qoyduğu yeganə şərt odur ki, işğal olunmuş bütün torpaqlar qeyd-şərtsiz azad edilməlidir. Çünki bu torpaqlar Azərbaycanın torpaqlarıdır. Bütün dünya bu torpaqların Azərbaycan ərazisi olduğunu qəbul edir. Bütün hüquqlar, beynəlxalq normalar Azərbaycanın haqlı mövqeyini nümayiş etdirir. Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi ucbatından hələ ki danışıqlar prosesi istədiyimiz nəticəyə gətirib çıxarmayıb. Əgər danışıqlar prosesi biz istədiyimiz nəticəni verməsə, pozulmuş ədalət bərpa olunmasa, Azərbaycanın torpaqları geri qayıtmasa, biz məsələni ordumuzun gücü hesabına həll edəcəyik. Bizim hər birimizin bir müqəddəs vəzifəsi var: işğal altında olan torpaqlarımızın azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtması, ədalətin bərpa olunması".

Birlik komandiri, general-mayor Mais Bərxudarov qeyd edib ki, Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü ordularından birinə çevrilib. Silahlı Qüvvələrin təminatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək olması onu deməyə əsas verir ki, ordumuz düşməni hər an məhv etməyə qadirdir, buna hazırdır.

Sonra YAP sədrinin müavini-icra katibi Əli Əhmədov və digər qonaqlar hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirib, şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olub, əsgərlərlə birgə nahar ediblər.

Hərbi hissəyə ideoloji və bədii kitablar hədiyyə olunub. Əsgər və zabitlər üçün konsert proqramı təşkil edilib.

# YAP-ın Qarabağ bölgəsi üzrə rayon təşkilatlarının ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib




Sentyabrın 8-də Ağcabədi rayonunda Yeni Azərbaycan Partiyasının Ağcabədi, Laçın, Bərdə, Ağdam və Tərtər rayon təşkilatlarının ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib.



AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir.

Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkəmizdə əməkhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş Nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Onun sözlərinə görə, hər bir ailə bu artımlardan faydalanır. Əli Əhmədov deyib ki, Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq.

YAP sədrinin müavini bildirib ki, Azərbaycanın bu uğurları qazanmasının əsasında dayanan amillərdən biri də sabitlikdir. Çünki sabitlik olmadan heç bir inkişafdan, əmin-amanlıqdan söhbət gedə bilməz. Ona görə də hər bir dövlət və xalq üçün sabitlik ən mühüm şərtlərdən biridir.

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir. YAP sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdır. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidir. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Əli Əhmədov həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyamızın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. O, Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək, bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Müşavirədə bələdiyyə seçkilərinə hazırlıq məsələləri ilə bağlı partiyanın rayon təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Ağcabədi Olimpiya İdman Kompleksində gənclərlə görüş olub








Sentyabrın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ağcabədi Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib.





Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Tahir Rzayev, Rauf Əliyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ağcabədi şəhərinin mərkəzi meydanında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Olimpiya idman kompleksində keçirilən tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP Siyasi Şurasının üzvü, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov tədbiri açaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Diqqətə çatdırıb ki, Ağcabədi rayonunun 136 min nəfər əhalisinin 37 min 700 nəfərini 14-29 yaşlı gənclər təşkil edir. YAP Ağcabədi rayonunun 15 min 600 nəfər üzvündən 6465 nəfəri gəncdir. Dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğısı nəticəsində Ağcabədi rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. Ağcabədili gənclər rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.

Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan danışıb. Baş Nazirin müavini bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınlıq yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır. Ə.Əhmədov qeyd edib ki, ölkəmizdə gənclər üçün hər cür həyat şəraiti yaradılıb. Gənclərimiz xoşbəxtdirlər ki, Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar. Milli Məclisin deputatı Tahir Rzayev çıxış edərək, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, gənclərin dövlətə, dövlətçiliyimizə, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətə həmişə sədaqətli olmalarından danışıb, onlara uğurlar arzulayıb.

Sonra idmançılar öz məharətlərini göstəriblər.

Tədbir konsert proqramı ilə başa çatıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

Dünya təcrübəsi

# Sənayenin inkişafında texnoparklar böyük rol oynayır

## Ölkəmiz bu sahədə dünya təcrübəsindən uğurla faydalanır

Əvvəli 1-ci səh.



Digər tərəfdən, texnoparklar yerli və ya dövlət orqanları tərəfindən yaradıla bilər. Bu halda texnoparkların yaradılmasında məqsəd əraziyə yeni fəaliyyət növünün cəlb edilməsidir.

Regional sahə texnoparkları regional iqtisadiyyatın hər hansı bir sektorunda innovasiya prosesinin aktivləşdirilməsi məqsədilə təşkil edilir. Regional sahə texnoparkları çoxlu xidmətlər göstərə bilər. Bu növ texnoparklar texnologiyaların regional sənaye müəssisələrinə idxalını təmin etmək və ya ayrıca götürülmüş şirkətin texnoloji məsələlərini həll etmək üçün yaradılır. Bu halda texnopark istehsal şirkətləri ilə sıx əlaqə quraraq rezident və ya ortağın texnoloji məsələlərini həll edəcək kiçik innovasiya şirkətlərinin yerləşməsinə imkan verir. Beləliklə, texnopark istehsal şirkətlərinə elmtutumlu və bahalı prosesləri sərbəst şəkildə kiçik innovasiya müəssisələrinə ötürməyə kömək edə bilər. Regional sahə texnoparklarının əsas gəlir mənbəyi ərazinin icarəyə verilməsi və istehsal şirkətləri üçün texnoloji həllərin axtarışı üzrə xidmətlərin göstərilməsidir.

Sənaye texnoparkları mahiyyət etibarilə texnoloji park deyil. Bu növ texnopark əsasən yeni istehsalın təşkili üçün fiziki infrastruktur obyektlərinin kompleksidir. Burada daha çox ərazilər müxtəlif fəaliyyət növləri üçün icarəyə verilir. Sənaye texnoparklarının yaradılması innovasiya mühitinin inkişaf və sıxlıq səviyyəsindən asılı deyil. Onlar texnologiya mübadiləsi üçün nəzərdə tutulmayıb, daha çox yeni iqtisadi fəaliyyətin növlərinin təşkili üçün müasir infrastrukturun yaradılmasına istiqamətlənib. İstehsalat texnoparkının yerləşdirilməsi şərtləri və onun obyektlərinə tələbat əsas rezidentlərin istəyi əsasında və ya sahə sənayesinə uyğun istehsal komplekslərinin yerləşdirilməsi təcrübəsinin təhlili nəticəsində müəyyən edilir. Çox vaxt əlavə nəqliyyat və logistika, mənzil tikintisində ixtisaslaşma tələb edir.

Texnoloji inkubatorlar və ya innovasiya biznesi inkubatorları kiçik innovasiya şirkətlərinə formalaşmalarının ilkin mərhələsində kömək etmək üçün nəzərdə tutulur. Bu növ texnoparklar innovasiya şirkətlərinin inkişafı üçün bütün lazımi ehtiyat və xidmətləri təmin edir. İnkubatorlar öz mahiyyətinə görə gəlir əldə etmək üçün nəzərdə tutulmayıb, biznesin inkişaf etdirilməsi üçün imtiyazların təmin edilməsinə istiqamətlənir. Ona görə də inkubatorların yaradılmasına sərbəst biznes kimi baxmaq olmaz, onların yaradılmasına daha çox sosial istiqamət kimi baxıla bilər. Onun müvəffəqiyyəti daha çox kiçik müəssisələrin axını və müəyyən həcmdə icarəyə verilən sahələrdən asılıdır.

Şəbəkə texnoparklarının tikintisi əsasən yerli hakimiyyətin təşəbbüsü ilə olur. Onlar bu obyektin köməyi ilə yaradılan texnoparkdan əldə olunan iqtisadi və sosial xeyri paylaşdırmaq istəyirlər. Şəbəkə texnoparklarının yaradılması üçün iqtisadi zəmin olmalıdır. Şəbəkə strukturu texnoparkların imkanlarını artırır, onların xidmətlərinin sayını çoxaldır, səmərəlilik göstəricilərinin yaxşılaşmasına imkan yaradır, eləcə də texnopark üçün əhəmiyyətli olan şəhər və digər ərazilərdə fiziki iştirakları təmin edilir. Şəbəkə texnoparkları regional, sahə və ya universitet texnoparklarının qollarındandır.

Şəbəkə texnologiyalarına əsaslanan texnopark xüsusi quruluşdur. Belə texnopark quruluşu regionun innovasiya imkanlarının rasional istifadə əsasında informasiya mübadiləsinin köməyi ilə səmərəli innovasiya prosesini təşkil etməyə qadirdir. Regionun malik olduğu innovasiya ehtiyatlarının sayı və keyfiyyətindən asılı olaraq innovasiya dövrünün həyata keçməsində öz aralarında müəyyən funksiyaları, mümkün riskləri və gələcək gəliri paylaşdıran müxtəlif idarə və təşkilatlar iştirak edə bilər. Belə vəziyyətdə texnoparkın menecerlərinin vəzifəsi regionda innovasiya prosesinin bütün üzvlərini əlaqələndirən informasiya fəaliyyətinin təşkili və informasiya axınının əlaqələndirilməsidir.

Kovorkinq mərkəzləri bir növ tədqiqat cəmiyyətlərinin ənənəvi texnoparkların xidmət haqqının artmasına, işgüzar infrastrukturun çatışmazlığına və informasiya texnologiyalarının inkişafına olan cavabdır. Bu, ofis mərkəzləridir, burada sərbəst insanlar bir ərazidə işləyirlər. Belə model daha çox əqli əməklə məşğul olanlara yarayır. Kovorkinq mərkəzlərinin müvəffəqiyyəti onların tədqiqatçılar cəmiyyətinə daxil olmaları, bilik axınlarını və informasiya mübadiləsini formalaşdırmaları, yeni başlayanlara şərait yaratmalarıdır. Bu mərkəzlərin başlıca funksiyaları tədqiqatçılara innovasiyanın qlobal bazarına "giriş"in təmin edilməsi və yerli tədqiqatçılar cəmiyyətlərinə dəstəkdir. Klassik texnopark fəaliyyətindən fərqli olaraq, kovorkinq mərkəzlərinin fəailiyyəti fiziki infrastruktur ilə işləmək, kommunikasiya yaratmaq və peşəkar cəmiyyətlərlə işbirliyi qurmaqdır. Belə hal az müddət ərzində aşağı qiymətə yeni iş yerləri açmağa və ərazidə işgüzar mühitin yaradılmasına gətirir.

Ölkəmizdə qeyri-neft sektorunun, xüsusilə qeyri-neft sənayesinin inkişafı istiqamətində mühüm addımlar atılır. Məqsədə nail olmaq üçün Azərbaycanda da texnoparkların yaradılmasına başlanılıb. Ölkədə fəaliyyət göstərən texnoparklarda müasir texnika və texnologiyaların tətbiqi sayəsində yüksəkkeyfiyyətli məhsul istehsal olunur. Cari ilin birinci yarısında qeyri-neft sənayesində məhsul istehsalının 15,7 faiz artması da bunun nəticəsidir. Qeyd edək ki, həmin texnoparklarda istehsal edilən məhsullar daxili tələbatı ödəməklə yanaşı, rəqabətqabiliyyətli olduğu üçün dünya bazarına da ixrac olunur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Bu mövsümdə İsmayıllıda 300 tonadək fındıq tədarük ediləcək

**İsmayıllı rayonunda fındıq yığımı davam edir və artıq bağlardan 153 ton məhsul toplanılıb.**

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, İsmayıllıda fındıq bağlarının sahəsi 2091 hektara çatdırılıb. Bağların 87 hektarı bar verəndir. Topçu, Qurbanəfəndi kənd, İsmayıllı şəhər ərazi dairələrində məhsul yığımı daha mütəşəkkil aparılır.

## Kreditləşmə təkmilləşdirilir

**Ölkədə kreditləşmə və kreditə əlçatanlıq getdikcə daha da təkmilləşdirilir.**

Azərbaycan Banklar Assosiasiyasından (ABA) bildirilib ki, qurumun bankların kreditləşmə istiqamətindəki rəhbər şəxslərinin üzv olduğu "Kredit işi" Ekspert Qrupunun növbəti iclası keçirilib. İclasda kreditləşmənin və kreditə əlçatanlığın təkmilləşdirilməsi məqsədilə banklardan toplanılan təkliflərə yenidən baxılıb. Bu istiqamətdə fikir mübadiləsi aparılıb. Sonda məsələ ilə bağlı müzakirələrin davam etdirilməsi qərara alınıb.

Qeyd edək ki, Azərbaycan Banklar Assosiasiyası 1990-cı ildə kommersiya bankları tərəfindən təsis edilib. Hazırda 29 bank və 3 qeyri-bank təşkilatı ABA-nın üzvüdür.

## Bağlarda badam yığılır

**Qusar rayonunun yeni salınmış badam bağlarında ilk məhsul yığılır. Qalacıq kəndində yerləşən, ümumi sahəsi 86 hektar olan iri meyvəçilik təsərrüfatının 10 hektarında badam bağı salınıb. Becərilən badam tingləri yerli şəraitə uyğunlaşıb və normal inkişaf edir.**



İki il öncə əkilən badam bağında orta məhsuldarlıq müşahidə olunur. Badam ağacları tam məhsula düşəndən sonra hər hektardan 6-10 ton məhsul yığılacaq. Təsərrüfatçı Baba Ağaşirinov deyir ki, badam yığımı sentyabrın sonlarına kimi yekunlaşacaq. Bağdan toplanan məhsul yerli bazarda satılacaq.

Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun dəstəyi ilə Qusarda 10, Şabranda isə 33 hektar badam bağı salınıb. Əkilən badam sortu amerikan mənşəlidir. "Guara" adlı badam növünə aid tinglər 3 ildən sonra məhsul verir. Sortun özəlliyi ondadır ki, gec çiçəkləyir, şaxtaya və quraqlığa davamlıdır. Ləpə çıxımı da təxminən 40-48 faizdir.

İnstitutun direktor müavini Vahid Əliyev bildirib ki, ölkə ərazisində badam bağlarının sahəsinin artırılması diqqətdə saxlanılır. Növbəti mərhələdə institutun layihəsi əsasında daha 150 hektar sahədə intensiv bağların salınması nəzərdə tutulub. Bunun bir hissəsini badam ağacları təşkil edəcək. Yeni bağların salınmasında istifadə olunacaq badam tingləri də institutun öz laboratoriyalarında mikroklonal üsulla yetişdiriləcək.

Qusarla yanaşı, Şabranın Ağalıq kəndində salınmış 23 hektar badam bağında da bu il ilk məhsul yığılır.

Son illər şimal bölgəsində ən çox badam bağı Siyəzən rayonu ərazisində salınıb. "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinin icrası nəticəsində rayonda yeni istifadəyə verilən suvarılan torpaqlarda 200 hektar sahədə badam ağacları əkilib.

Qeyd edək ki, dünya bazarında badama böyük tələbat var və o, bir çox ölkədə əsas valyuta gətirən məhsullardan sayılır.

# Çəltikçilər bol məhsul götürəcəklər





Qeyri-neft-qaz sektorunun inkişafının prioritet elan edildiyi indiki dövrdə bu sahənin əsas qolu olan kənd təsərrüfatının şaxələndirilməsi xüsusi önəm daşıyır.

Bu isə yalnız unudulmuş kənd təsərrüfatı sahələrinin yenidən dirçəldilməsi sayəsində mümkündür. Məhz buna görə dövlət həmin sahələrin keçmiş şöhrətinin özünə qaytarılmasını vacib sayır ki, onlardan biri də çəltikçilikdir.

Lənkəran rayonunda fəaliyyət göstərən "Creen East" çəltikçilik fermer təsərrüfatında bu il bol məhsul yetişdirilib. Çəltikçilər 160 hektar sahədən bol məhsul götürəcəklər. Hər hektardan 4 ton məhsul əldə etmək nəzərdə tutulub. Artıq biçinə başlanıb. İşlər uğurla davam edir.

Şəkildə: kombaynçı Ramil Qasımov, aqronom Fərman Abdullayev və suçu Rasif Mirzəcanov zəmidə.

*"Azərbaycan"*
*Foto Fərman BAĞIROVUNDUR*

# 133 ölkə, 1 milyard 336 milyon dollarlıq sifariş







Əvvəli 1-ci səh.

### 7 ayda 187 ölkədən 1777,4 min turist gəlib

Son illərdə ölkəmizə səfər edən turistlərin də sayında artım müşahidə olunur. Elə icmalın bu sayında göstərilən statistik rəqəmlər də bunu bir daha təsdiqləyir.

Son 7 ayda Azərbaycana dünyanın 187 ölkəsindən 1777,4 min və ya 2018-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 7,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Bu ilin iyul ayında ölkəmizə gələn xarici vətəndaşların sayının 10,6 faiz artmasına paralel olaraq onların bank kartları vasitəsilə xərcləmələrində də artım müşahidə edilib. Belə ki, 2019-cu ilin iyul ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatlar 134,6 milyon manat təşkil edib və ötən ilin iyul ayı ilə müqayisədə 7 faiz artıb. Ümumilikdə isə 2019-cu ilin yanvar-iyul ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 725,4 milyon manat təşkil edib.

### Ən çox ixrac sifarişi daxil olan ölkələr Rusiya və Türkiyədir

"İxrac İcmalı"nda yanvar-iyul ayları ərzində "Azexport.az" portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Göstərilib ki, 7 ayda portala 346,6 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-iyul aylarında ixrac sifarişləri 10 faiz artıb.

2019-cu ilin iyul ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 43,5 milyon dollar təşkil edib və ötən ilin iyul ayı ilə müqayisədə 40 faizlik artım qeydə alınıb. İlin son 7 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (12,1 faiz), Türkiyə (6,4 faiz), ABŞ (6 faiz), Hindistan (5,7 faiz) və İngiltərə (4,8 faiz) qərarlaşıb.

Bu ilin iyul ayında portala ən çox ixrac sifarişi pambıq, pomidor, fındıq ləpəsi, alma, tütün, toyuq yumurtası, şərab, qənnadı məhsulu, kosmetik vasitə, çay, tikinti materialı, mühərrik yağı, bal, boya, kompot, nar məhsulları, yun, mebel dəsti, mineral su və s. mallara olub.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 iyul tarixinə kimi (31 ay ərzində) "Azexport.az" portalına dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 milyard 336 milyon dollar təşkil edib.

Həmçinin "İxrac İcmalı"nda göstərilib ki, bu ilin avqust ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 11,6 milyon dollar olub. 7 ay ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən yüzlərlə sahibkara ixracla bağlı müvafiq sertifikatlar verilib və bunun nəticəsində 91,7 milyon dollar dəyərində qeyri-neft ixracı həyata keçirilib.

Əlbəttə ki, icmalın məqsədi sahibkarları ixracla bağlı maarifləndirməyə, yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmağa və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirməyə xidmət edir.

Göründüyü kimi, dövlət iş adamlarına hərtərəfli dəstəyini göstərməkdə davam edir. Sahibkarlar isə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə də mühüm töhfə verirlər. Bütün bunlar Prezident İlham Əliyevin iqtisadi islahatları nəticəsində sahibkarların öz ixrac-idxal əməliyyatlarını daha rahat şəkildə yerinə yetirmələri üçün həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatları məqsədyönlü şəkildə yayır

Ermənistanın baş naziri Nikol Paşinyan avqustun 6-da Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində keçirilmiş "7-ci erməni oyunları"nın açılış mərasimində çıxışı zamanı sözügedən oyunlarda ilk dəfə olaraq bəzi ölkələrin, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin də iştirak etməsini qeyd etmişdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bu xüsusda, həmin ölkələrin Azərbaycanın işğal olunmuş ərazilərində keçirilən bu tədbirə qatılması ilə bağlı hansı tədbirlər görməsi ilə bağlı KİV-in sualını cavablandırıb.

XİN rəsmisi deyib: "İlk dəfə deyil ki, Ermənistan rəsmilərinin həqiqəti əks etdirməyən bəyanatları ilə üzləşirik. Qeyd etdiyiniz məsələ ilə bağlı Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinə nota ünvanlayıb. Cavab notasında nazirlik bildirib ki, Dağlıq Qarabağ ərazisində keçirilən tədbirdə Birləşmiş Ərəb Əmirliklərinin heç bir vətəndaşı iştirak etməyib. Göründüyü kimi, Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatları məqsədyönlü şəkildə yayaraq, qanunsuz separatçı rejimin guya "tanınması" görüntüsünü yaratmaq istəyir. Öz növbəsində, bütün bu kimi cəhdlər sonda yayılan yalan məlumatların ifşası ilə nəticələnir".

# İşğal edilmiş Dağlıq Qarabağda keçirilən növbəti "seçki şousu" demokratiya və seçki adına böyük təhqirdir

Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində 2019-cu il 8 sentyabr tarixində "yerli özünüidarəetmə orqanlarına seçkilər" adı altında növbəti "seçki şousu" təşkil edilib.

Reallıq hissini itirmiş təcavüzkar Ermənistan və əlaltısı olan cinayətkar Qarabağ xuntasının atdığı bu addım tam qanunsuzdur, heç bir hüquqi əsası yoxdur, demokratiya və seçki adına böyük bir təhqirdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevin işğal edilmiş ərazilərimizdə keçirilmiş "yerli özünüidarəetmə orqanlarına seçkilər" ilə bağlı bəyanatında yer alıb.

"Qondarma xuntanın saxta "rəhbərləri" olan Bako Saakyan, Aşot Qulyan və onların ətrafındakı digər demokratiya "əzabkeşləri"nə bildiririk ki, onların demokratiya pərdəsi altında gizlənmək niyyətləri istehza doğurur və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi və etnik təmizləmənin həyata keçirildiyi bir şəraitdə bu "seçkilər" nəticəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan və təcavüzkarı növbəti dəfə ifşa edən bir şoudur. Əslində, işğalçı Ermənistan və qanlı xunta belə "seçkilər" keçirməklə beynəlxalq ictimaiyyəti deyil, yalnız özlərini aldatmaqla məşğul olur. Saxta "seçkilər" həmçinin Ermənistan hakimiyyəti və qondarma rejim arasında ixtilafların mövcudluğunu bir daha açıq şəkildə büruzə verdi. Bundan isə əziyyət çəkən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə bərabər həm də elə erməni icmasıdır. Tam əminik ki, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri bərpa olunduqdan sonra geriyə dönəcək azərbaycanlılarla birlikdə ölkəmizin Konstitusiyası və bələdiyyələr haqqında qanunlarına uyğun olaraq yerli özünüidarəetmə orqanlarına keçiriləcək qanuni seçkilərdə iştirak edəcək", - deyə bəyanatda vurğulanır.

# Gürcüstan işğal olunmuş Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkiləri" və onun nəticələrini tanımır

Gürcüstan Xarici İşlər Nazirliyi işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qondarma "yerli özünüidarəetmə orqanlarına" keçirilən "seçkilər" ilə bağlı bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bununla bağlı Gürcüstan Xarici İşlər Nazirliyinin saytında rəsmi məlumat yerləşdirilib.

Bəyanatda deyilir ki, Gürcüstan Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü tanıyır. Eyni zamanda, Gürcüstan işğal olunmuş Dağlıq Qarabağda 2019-cu il sentyabrın 8-də keçirilən "yerli özünü idarəetmə orqanlarına seçkiləri" və onun nəticələrini tanımır. Gürcüstan XİN münaqişənin sülh yolu ilə beynəlxalq hüququn norma və prinsipləri əsasında, beynəlxalq ictimaiyyətin iştirakı ilə həllinə tərəfdardır.

# Paşinyan terrorçularla birləşir

## İşğalçı ölkədə hakimiyyətə qarşı narazılıqların miqyası daha da genişlənir

2018-ci ilin mayında Ermənistanda hakimiyyəti ələ keçirmiş baş nazir Nikol Paşinyan nə qədər çək-çevir etsə də, ötən müddət ərzində nəinki ölkə ictimaiyyətinin, hətta yaxın tərəfdarlarının da ümidlərini doğrulda bilmir.

Hökumət başçısının vaxtilə verdiyi vədlər söz olaraq qalır, cəmiyyətdə siyasi ab-havanı normal məcraya salmaq, milli iqtisadiyyatı irəli aparmaq üçün elə bir təsirli tədbir görülmür. Paşinyan indiki halda boşboğazlıqdan o tərəfə keçmir, xalq isə davam edən siyasi kataklizmləri müşahidə etmək məcburiyyətində qalır.

Bütün bunlara paralel olaraq Ermənistanın yeni hakimiyyəti ilə Sarkisyan-Koçaryan koalisiyası arasında yaranan qarşıdurma ölkədə siyasi sahə ilə yanaşı sosial-iqtisadi sferada da ciddi problemlər yaradır. Əsas səbəb isə odur ki, ölkənin maliyyə rıçaqları, iqtisadiyyatın bir çox mühüm sferaları, deyilənə görə, hələ də keçmiş hakimiyyətin nəzarətindədir. İndi onlar baş nazir Nikol Paşinyanın mövqelərini laxlatmaq üçün əllərində olan bütün imkanlardan yararlanmağa çalışırlar.

Ermənistanda siyasi müstəvidə zorakılıq hallarının artması da ciddi təhdid mənbəyi kimi qeyd olunur. Xatırladaq ki, bu hal xüsusən də 2016-cı il iyulun 17-də Yerevanda Post-Patrul Xidmətinin binasına silahlı hücum edərək girovlar götürmüş "Sasna Tsrer" qruplaşması ilə bağlı özünü qabarıq göstərir. Qeyd edək ki, həmin vaxt "Sasna Tsrer" qruplaşması Serj Sarkisyanı hakimiyyətdən getməyə məcbur etmək üçün silahlı qiyam qaldırmış və post-patrul xidmətinin binasına hücum edərək 6 nəfəri girov götürmüşdü. Ermənistanda məlum hakimiyyət dəyişikliyindən sonra isə "Sasna Tsrer" terror təşkilatının "xaç atası", o cümlədən qruplaşmanın mənəvi lideri Jirayr Səfilyan həbsdən azad edilmişdi. Səfilyanla yanaşı, təşkilatın digər üzvləri Gevorq Safaryan, Nerses Poğosyan, Qalust Qrigoryan, Hrayr Topçyan, Sasunik Kirakosyan, Ovhannes Petrosyan azadlığa buraxıldılar.

Bu günlərdə Paşinyan "Sasna Tsrer" terrorçu partiyasının lideri J.Səfilyanı və partiyasının siyasi şurasının üzvü Qaregin Çugasyzyanı qəbul edib. Səfilyan mətbuata verdiyi açıqlamasında baş nazirlə danışıqların nəticələri barədə məlumat verib: "Köhnə rejimdən miras qalan problemlərdən danışdıq. Əsas odur ki, gördüyümüz təhdidlərdən xəbərdarlıq edəcəyik. Ümid edirik ki, bu istiqamətdə ünsiyyət daha sıx olacaq. Hamımız sabiqlərin qisas almağa necə hazırlaşdıqlarını görürük. Biz bu qisasa imkan verməyəcək qüvvəyik. Qalan təfərrüatlar barədə gələcəkdə açıqlama verəcəyik".

Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə siyasi vəziyyətin gərginləşməsi və Paşinyanla "Qarabağ qrupu" adlanan dəstə arasında dərinləşən qarşıdurma hakimiyyəti şəxsən baş nazirə sadiq silahlı dəstələr yaratmağa məcbur edir.

Ermənistanın sabiq təhsil naziri, Respublikaçılar Partiyasının sədr müavini Armen Aşotyan sensasion açıqlamaları ilə sosial şəbəkələr vasitəsilə xalqa müraciət edərək Paşinyanın ünvanına sərt tənqidlər yağdırıb: "Paşinyan faktiki olaraq Ermənistanda keçmiş məmurlardan qisasalma missiyasını və bəzi oliqarxlara hədə-qorxu gələrək rüşvətalma kampaniyasını həyata keçirir. O, xalqın fikirlərini yayındırmaq üçün "1 mart hadisələri" pərdəsi altında respublikaçıların fəal üzvlərini və keçmiş generalları siyasi təqiblərə məruz qoyaraq onlardan qisas alır. Lakin Paşinyan bu gün Ermənistanda polis zorakılığı nəticəsində dinc sakinlərə divan tutulduğunu görmür. Dünyada ikinci elə bir ölkə tapılmaz ki, son 1 il ərzində bu qədər sifarişli həbslər, polis zorakılığı baş versin. Həbsxanalarda, demək olar ki, boş yer qalmayıb. Məhkəmə orqanları isə sifarişləri həyata keçirməklə məşğuldur. Paşinyan mövqeyini qoruyub saxlamaq üçün hər cür üsula əl atır. O, terrorçu "Sasna Tsrer" blokunun lideri Jirayr Səfilyanla gizli görüşərək yeni plan hazırlayır. Paşinyan bu hiyləgər arzusunu reallaşdıra bilməyəcək".

İş o yerə çatıb ki, Paşinyanın rəhbərlik etdiyi "Mənim addımım" parlament fraksiyasında da, "Vətəndaş razılaşması" partiyasında da fikir ayrılıqları açıq şəkildə özünü büruzə verməkdədir. Hakim komanda daxilində birliyin olmaması Paşinyanın durumunu daha da çətinləşdirir. Hələ də həllini tapmayan Amulsar qızıl yatağı ilə bağlı hakim fraksiyada ciddi mövqe fərqləri var. Böyük əksəriyyət yatağın istismarını ölkənin ekologiyası, insanların sağlamlığı üçün təhlükə hesab edir.

Bu günlərdə mandatdan imtina etmiş "Mənim addımım" hakim parlament fraksiyasının deputatı Edqar Arakelyan da məhz Amulsarın istismarından narazı idi. Etiraf etməsə də, onun Amulsar və digər məsələlərlə bağlı istefa verdiyi barədə Ermənistan mətbuatı məlumatlar dərc edib.

Ermənistanın "Lragir" qəzeti yazır ki, bu durumda ölkəni iqtisadi sahədə çətin günlər gözləyir: "Mərkəzi Bankın Ermənistanda makroiqtisadi vəziyyətin sabit olduğuna dair əhalini arxayın etməsinə baxmayaraq, biz yenidən milli valyutamız dramın növbəti devalvasiyasının şahidi olduq. Mənbəmiz bildirdi ki, Mərkəzi Bank hətta tələb olduğu halda belə banklara dollar almağı qadağan edərək repressiv tədbirlər vasitəsilə dramın kursunu saxlamağa çalışır. Əgər əvvəllər Mərkəzi Bank valyuta müdaxilələri yolu ilə dramın kursuna təsir edirdisə, indi xarici rezervlərin pis vəziyyətdə olması üzündən bu maliyyə instrumentinin tətbiqi imkanları xeyli məhdudlaşıb. Bütün bunlar Serj Sarkisyan hakimiyyətinin qoyduğu miraslardır".

Ümumiyyətlə, görünən budur ki, Ermənistanda sosial zəmində etirazlar getdikcə artır. Ölkədə müsbətə doğru dəyişən nəsə yoxdur. Hətta iş o yerə çatıb ki, Yerevanın yaxınlığında yerləşən Nubaraşen həbsxanasında məhkumlar da üsyan qaldırıblar. Onlar koloniyada baş verən qanunsuzluqlarla, məhkumların saxlanılması şəraitinin acınacaqlı olmasına qarşı etirazlarını bildiriblər. Ölkənin ədliyyə naziri Rüstəm Badasyan bildirib ki, həbsxanaya əlavə mühafizə dəstələri göndərilib və kollektiv üsyanın qarşısı alınıb. Onun sözlərinə görə, hazırda islah-əmək koloniyasında vəziyyət sabitdir. Erməni nazir əlavə edib ki, üsyançı məhkumların yenidən itaətsizlik göstərəcəyi təqdirdə əlavə tədbirlər görüləcək.

Yerli mətbuatın yazdığına görə, həbsxananın mühafizə işçiləri kriminal avtoritetlər üçün rüşvət müqabilində qadağan olunmuş müxtəlif əşyalardan, habelə narkotik vasitələrdən istifadə edilməsinə şərait yaradıblar. Korrupsiya və özbaşınalığın hökm sürdüyü koloniyada digər məhkumlar aclıq və antisanitariya şəraitində saxlanılır.

Beləliklə, Paşinyan arzuolunmaz vəziyyətə düşüb: nə ölkənin problemlərini həll edə bilir, nə də normal idarəçilik həyata keçirir. Onun və başçılıq etdiyi hökumətin taleyi böyük sual altındadır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Atəşkəs rejimi 20 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Şuraabad, Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


**Şəfəq-Asiman üzrə hasilatın pay bölgüsü haqqında sazişin operatoru kimi BP elan edir ki, Şəfəq-Asiman üzrə kəşfiyyat qazma layihəsinin Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirinin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə görüş keçiriləcək**

bp

BP bütün maraqlı tərəfləri bu görüşdə iştirak etməyə dəvət edir. Görüş aşağıdakı ünvanda və tarixdə keçiriləcək:

**"HOLIDAY INN" mehmanxanası (Kövkəb Səfərəliyeva küçəsi, 5, Bakı, Azərbaycan, AZ 1010), "Moskva" zalı**

**11 sentyabr 2019-cu il**
**10:00 - 12:00**

Görüşdə sənəd haqqında təqdimatlar olacaq və auditoriyanın sualları və şərhləri ətrafında müzakirə keçiriləcək.

**05 avqust 2019-cu il tarixdən etibarən ƏMSSTQ sənədinin layihə variantının nüsxələri (və rəy formaları) ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda yerləşdirilib:**

- BP-nin Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi: Neftçilər prospekti, 153
- M.F.Axundov adına Milli Kitabxana: Xaqani küçəsi, 29
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası: Hüseyn Cavid küçəsi, 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası: Azadlıq prospekti, 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi: Bəhram Ağayev küçəsi, 100a
- Bakı Kitab Mərkəzi: Üzeyir Hacıbəyov küç., 5; Qoqol küç., 2
- Libraff Kitab Mağazası: Hüseyn Cavid prospekti, 186 (Mirvari Park kompleksi, D Bloku)
- Bakı Ali Neft Məktəbinin kitabxanası: Bakı şəhəri, Yeni Salyan şosesi, 3-cü km (Bakı Ali Neft Məktəbinin Kampusu)

Bundan əlavə, sənədin tam versiyası və qısa xülasəsi (Azərbaycan və ingilis dillərində) BP-nin veb-saytında yerləşdirilib:
https://www.bp.com/en_az/caspian/sustainability/environment/env-and-social-documentation/Shafag-Asiman-EIA.html

BP bütün maraqlananları ƏMSSTQ sənədinin layihə variantı ilə bağlı şərh və rəylər təqdim etməyə dəvət edir. Şərhlər görüş ərzində, www.bp.com/caspian veb-saytına daxil olmaqla və ya esiafeedback@bp.com elektron ünvanına məktub göndərməklə təqdim edilə bilər.

Əlavə məlumat üçün BP-nin tələblərə riayət və icazələr üzrə qrup rəhbəri Səadət Qafarova ilə əlaqə saxlaya bilərsiniz:
E-poçt: esiafeedback@bp.com
Tel.: (012) 404-69-19 və ya (055) 225-90-13


# *"Foreign Policy News"*: Ermənistanın "Amulsar" mədəni Cənubi Qafqazın ekologiyası üçün fəlakət mənbəyidir

ABŞ-ın "Foreign Policy News" portalında Ermənistanda "Amulsar" qızıl mədənində işlərin davam etməsinin ətraf mühitə ziyan verməsindən və faciəvi ekoloji problemlərə gətirib çıxaracağından bəhs edən məqalə dərc olunub.




AZƏRTAC xəbər verir ki, "Amulsar" mədəni və rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqe haqqında yazan Mərkəzi və Şərqi Avropa üzrə analitik Maykl Bennett Ermənistanın baş naziri Nikol Paşinyanın qızıl mədənində işlərin davam etdiriləcəyini bəyan etdiyini bildirib. O qeyd edib ki, lakin yerli və beynəlxalq ekspertlər, ekoloqlar və səlahiyyətli dairələr bu layihənin nəinki Ermənistanın, hətta bütün Cənubi Qafqazın ekologiyası üçün fəlakət yaradacağını söyləyirlər.

Qeyd olunur ki, baş nazir Nikol Paşinyan bu yaxınlarda Facebook səhifəsində bildirib ki, layihənin Ermənistana və bölgəyə nə dərəcədə zərərli olmasını təyin etmək üçün yaradılan beynəlxalq ekspertlər qrupunun apardığı tədqiqata görə, Cermux və Sevan gölü yaxınlığında yerləşən "Amulsar" qızıl mədəninin istismarının heç bir ekoloji təhlükəsi yoxdur.

Müəllif yazır ki, Paşinyanın erməni xalqına 2025-ci ilə böyük iqtisadi sıçrayışlar söz verməsi onu bu layihənin reallaşmasında daha maraqlı edir. Belə ki, layihənin operatoru olan Böyük Britaniyanın "Lydian Armenia" şirkəti Ermənistanda sosial layihələrin icrasına 3 milyon dollardan çox vəsait xərcləyib, həmçinin təbiətin mühafizəsi məqsədilə qoruq yaradacağına boyun olub. Hazırda qarşısına ciddi iqtisadi artım planı qoyan Ermənistan hökuməti üçün "Amulsar" qızıl mədəninin istismarı layihəsi göydəndüşmə kimi görünə bilər.

Yerli ekoloqlar isə baş nazirin bu bəyanatına cavab olaraq Ermənistanın paytaxtı Yerevan şəhərində bir neçə etiraz aksiyası keçirib və bu layihənin Cənubi Qafqazda yeni ekoloji təhlükə ocağı olacağını bildiriblər.

Oxucuların diqqətinə çatdırılır ki, "Amulsar" qızıl yatağı Ermənistanın təmiz qızıl ehtiyatına görə ikinci yatağıdır. Yataqda 31 milyon ton qızıl filizi və 40 min ton təmiz qızıl aşkarlanıb. Ekoloqların fikrincə, Arpa və Vorotan çayları arasında, Cermux kurort şəhərinin 13 kilometrliyində yerləşən yatağın istismarı zamanı Cermux yatağı yaxınlığında olan yeraltı sular, daha sonra isə əsas su mənbəyi olan Sevan gölü həyat üçün təhlükəli olan maddələrlə çirklənəcək və bu, həlli mümkün olmayan fəlakətə səbəb ola bilər. Məhz bu səbəbdən ekspert rəyi alınana qədər "Amulsar" qızıl mədənində işlər dayandırılıb və "Earth Link & Advanced Resources Development" (ELARD) şirkətinə kompleks ekspertiza aparmaq üçün vəsait ayrılıb. Lakin ELARD şirkətinin gəldiyi nəticə Ermənistan rəhbərliyinin istəyi ilə üst-üstə düşüb və bu yataqların istismar edilməsini qeyri-təhlükəli kimi qiymətləndirib. ELARD bildirib ki, yataqların istismarı zamanı təhlükələr minimal və aradan qaldırılandır. Buna baxmayaraq, dünyanın aparıcı beyin mərkəzlərinin üç əməkdaşı Ermənistandan olan həmkarları Harun Branozyanla birgə layihənin ətraf mühitə təsiri sənədini incələyərək belə qərara gəliblər ki, "Amulsar" qızıl yatağının istismarı layihəsi ətraf mühit üçün çox zərərlidir.

Maykl Bennett qeyd edir ki, layihə nəinki Cermux ətrafı bölgələrə və Sevan gölünə, həmçinin Azərbaycan ərazisindən keçən çayların çirklənməsinə şərait yaradır. Layihənin başlanması ilə asid, metal, sulfat, nitrat və digər həyat üçün təhlükəli zərərli maddələrin Arpa, Darb və Vorotan çaylarına, Kerçut su anbarına axacaq, bəlkə də daha çox müddətdə axıdılması baş verəcək ki, bu da nəticədə ekosistemin məhvinə şərait yaradacaq. "Lydian" şirkətinin nəzərdə tutduğu tədbirlər yetərli deyil və su hövzələrinin çirklənməməsi riskini qarşılamır", - deyə ekspertlər bildiriblər.

Hesabatda adıçəkilən Arpa çayının Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində, Vorotan çayının isə Ermənistan tərəfdən işğal edilmiş Azərbaycan torpaqlarında Araz çayı ilə birləşdiyi bildirilir. Bu, o deməkdir ki, qızıl yataqlarının istismarı nəticəsində çirklənmiş su Araz vasitəsilə Azərbaycanın əsas içməli su ehtiyatı olan Kür çayına, oradan isə neft və nərə balıqları ilə zəngin Xəzər dənizinə axıdılacaq. Beləliklə, "Amulsar" yatağının istismarı nəinki Cermux ətrafına və Sevan gölünə, həmçinin kütləvi iqlim dəyişiklikləri ilə mübarizəyə qoşularaq ağacəkmə kampaniyasının aparıldığı Azərbaycan və bütün Xəzər hövzəsi ölkələri üçün də təhlükəli olacaq. Bu, artıq problemi iki qonşu ölkə çərçivəsindən çıxaracaq və Amazon meşələrinin yanması kimi dünya miqyaslı edəcək.

Son olaraq hesabat müəllifləri Ermənistan hökumətini və onun vətəndaşlarını bu layihənin reallaşdırılmasına imkan verməməyə çağırıblar.

Ekoloqlar, həmçinin bildirirlər ki, bu layihəni həyata keçirməklə Ermənistan BMT-nin transsərhəd çayları ilə bağlı konvensiyasına da zidd hərəkət etmiş olacaq.

Məqalənin sonunda qeyd olunur ki, "Amulsar" qızıl mədəninin yarada biləcəyi ekoloji fəsad iqlim dəyişikliyi ilə bağlı böyük dövlətlərin ortaya qoyduğu məqsədlərin əleyhinə fəaliyyət kimi qiymətləndirilə bilər.

● Yeni dərs ili qarşısında

# İlin bilik qalibləri

## 695 balla respublika birincisi Təhmin Muradov parlaq nəticəsinin uğur formulunu bölüşür

**“Uğurun açarı çalışmaqla əldə oluna bilər. Hansısa istedadın, savadın, biliyin ola bilər, amma çalışqan olmasan, zəhmət çəkməsən, qarşıda parlaq nəticə əldə etmək mümkün olmur”.**



Bu fikirləri builki qəbul imtahanlarında bütün qruplar üzrə ən yüksək nəticə göstərən, 694.6 balla respublika üzrə birinci olan gənc Təhmin Muradov söyləyir. Bərdə şəhər Şəhid Alı adına 5 nömrəli tam orta məktəbin şagirdi Təhmin Muradov Azərbaycan Tibb Universitetinin Müalicə işi fakültəsini seçib.

O deyir ki, həkim olmaq uşaqlıq arzusu olub və bu arzusuna çatmaq üçün illərlə əzmlə çalışıb: “Ali məktəbə ilk hazırlaşmağa başladığım dövrdən etibarən hədəfim 700 bal toplamaq idi. 694.6 balla respublika birincisi olacağıma inanmırdım. Çünki əvvəlki illərdə bir çox abituriyent maksimum 700 bal topladığına görə topladığım balın bu il son hədd olacağına inanmırdım. Əslində, imtahandan sonra yaxınlarım, müəllimlərim mənə dedilər ki, sən respublika birincisi olacaqsan, amma yenə də inanmırdım. Nəticələr elan olunandan sonra həqiqətən belə olduğunu eşidəndə həm təəccübləndim, həm də sevinib qürur duydum”.

### Hər zaman fərqlənməyi bacarıb

İbtidai siniflərdən etibarən dərslərinə daim diqqətlə yanaşan Təhmin hər zaman biliyi ilə fərqlənib. IX, X, XI siniflərdə ardıcıl olaraq respublika fənn olimpiadalarında biologiya fənni üzrə qızıl medal qazanıb. Məktəbi də qızıl medalla başa vurub: “Bu gün uğur qazanmağım, uşaqlıq arzum olan həkimlik sənətinə qəbul oluna bilməyimdə müəllimlərimin və valideynlərimin də əməyi var. Hər zaman yanımda olub, yüksək təhsil almağım üçün hər cür şərait yaradıblar və psixoloji dəstək olublar. Abituriyentə təzyiq olanda düzgün nəticə göstərmir. Çünki üzərində ətrafındakıların, valideynlərinin basqısını hiss edəndə imtahan zamanı özünü itirir və sualları düzgün cavablandıra bilməyərək yaxşı nəticə göstərə bilmir”.

Orta məktəbdə riyaziyyat müəlliminin anası olduğunu söyləyən Təhmin deyir ki, ailədə iki qardaşdırlar və iki il əvvəl, 2017-ci ildə böyük qardaşı Fəhmin də qəbul imtahanlarında yüksək nəticə göstərərək 695 balla Tibb Universitetinə qəbul olunub. İndi hər iki qardaş adıçəkilən universitetin müalicə işi fakültəsində təhsilni davam etdirəcək.

Gələcək həkim söyləyir ki, builki imtahanlarda əvvəlki sistemə görə çox dəyişikliklər olub: “Yazılı suallar, ingilis dilindən dinləmə mətnləri var idi. Bu, mənim üçün də bir qədər çətin oldu. Çünki ingilis dilindən dinləmə mətni üçün əyani vəsaitim olmadığından onun üzərində yaxşı işləyə bilməmişdim. Bu səbəbdən də səhvim ingilis dilindən oldu və mən 700 bal toplaya bilmədim. Amma düşünürəm ki, topladığım bal da kifayət qədər yüksəkdir və imtahan çətin olsa da, mən onun öhdəsindən gəlməyi bacardım”.

### Biliyin təməli məktəbdə qoyulur

Adətən belə bir ümumi fikir yaranıb ki, ali məktəbə qəbul olunmaq üçün şəhər mühitindəki məktəblərdə, liseylərdə oxumaq, həmçinin əlavə kurslara, repetitor yanına getmək lazımdır. Bölgə məktəbinin şagirdi olan Təhmin isə düşünür ki, uğur qazanmaq üçün mütləq mərkəzdə olmaq vacib deyil: “Bölgələrimizdə də, mərkəzdəki kimi, təhsillə bağlı hazırlıq səviyyəsi yüksəkdir. Bilikli, peşəkar müəllimlər var. Bu il Bərdə rayonundan yüksək balla universitetə qəbul olunan tələbə tək mən deyiləm. 676, 668, 658 bal toplayaraq universitetlərə qəbul olunan gənclərimiz var. O cümlədən də digər rayonlardan. Düşünürəm ki, şagirdlər ilk dönəmdə məktəbdə yaxşı oxumalı, müəllimlərinə diqqətlə qulaq asmalıdırlar. Çünki biliyin təməli məktəbdə qoyulur, məktəbdə yaxşı oxumalısan ki, sonradan hazırlıq kursuna, əlavə müəllim yanına gedəndə daha da təkmilləşə, püxtələşə biləsən”.

Təhmin qeyd edir ki, yay tətilində əsasən bədii əsərlər oxuyur, yaxud dünyagörüşünü artırmaq üçün digər vasitələrdən istifadə edirmiş. Amma imtahanlara hazırlıq zamanı bunları bir qədər məhdudlaşdırıb: “Demək olar ki, 9-10-11-ci siniflərdə sırf dərslərimə yönəldiyim üçün əlavə aktivliklərdə az iştirak edirdim. Amma bu o demək deyil ki, bütün gün dərs oxuyur, istirahətə zaman ayırmırdım. Sadəcə planlaşdırılmış formada çalışmaq, istirahətə də zaman ayırmaq lazımdır ki, dincələ biləsən, yorğun olmayasan”.

Gənc tələbə gələcək məqsədləri barədə məlumat verərkən deyir ki, bakalavr dərəcəsini Azərbaycanda oxumaq istəyir. “VI kursu qurtardıqdan sonra isə rezidenturanı Almaniyada oxumaq niyyətindəyəm. Orada təhsilimi bitirdikdən sonra yenidən Azərbaycana dönüb burada işləyəcəyəm. İstəyirəm ki, seçdiyim həkimlik sahəsi üzrə peşəkar olum. İnsanlara xeyirli bir vətən övladı olum”.

Artıq qısa müddətdən sonra Təhmin kiçik yaşlarından arzuladığı və çalışqanlığı sayəsində addım-addım yaxınlaşdığı həkimlik ixtisasında təhsil alacaq və müqəddəs Hippokrat andı içəcək.

***Yasəmən MUSAYEVA, Ağaəli MƏMMƏDOV (foto), “Azərbaycan”***

# “Avro 2020”: Azərbaycan millisi ilk xalını qazanıb





Sentyabrın 9-da futbol üzrə Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Azərbaycan millisi növbəti oyununu keçirib.

AZƏRTAC xəbər verir ki, millimiz “Bakcell Arena”da Xorvatiya yığmasını qəbul edib.

Millimizin start heyətində Emil Balayev, Qara Qarayev, Şəhriyar Rəhimov, Maksim Medvedev, Bəhlul Mustafazadə, Mahir Emreli, Ramil Şeydayev, Dmitri Nazarov, Anton Krivotsyuk, Pavel Paşayev və Cavid Hüseynov yer alıblar.

Xorvatiya yığmasının ilk onbirliyində isə meydana Dominik Livakoviç, Borna Barişiç, İvan Perişiç, Deyan Lovren, Luka Modriç, Marselo Brozoviç, Nikola Vlasiç, Ante Rebiç, Bruno Petkoviç, Domaqoy Vida və Karlo Bartolets çıxıblar.

İsveçrədən olan hakimlər briqadasının idarə etdiyi oyunun 11-ci dəqiqəsində yığmamızın qapısına təyin olunmuş 11 metrlik cərimə zərbəsini Luka Modriç dəqiq yerinə yetirib. Matçın birinci hissəsi Xorvatiya yığmasının minimal üstünlüyü ilə yekunlaşıb-1:0.

İkinci hissəyə Azərbaycan millisi daha fəal başlayıb. Oyunun 72-ci dəqiqəsində millimizin üzvü Təmkin Xəlilzadə baxımlı qola imza ataraq hesaba tarazlıq gətirib. Komandaların səylərinə baxmayaraq, oyunun sonunadək hesab dəyişməyib.

Beləliklə, görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb və komandamız Avropa çempionatının seçmə mərhələsində ilk xalını qazanıb.

Bu komandalar arasında Xorvatiyada baş tutan görüş meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə başa çatmışdı.


# “5/36” tirajlı lotereyasının şərtləri və qazanılmış CekPotlar barədə məlumat

AZƏRLOTEREYA

“Azərlotereya” Açıq Səhmdar Cəmiyyəti tərəfindən keçirilən “5/36” tirajlı lotereyası həftə içi hər gün Space televiziya kanalının vasitəsilə canlı efirdə yayımlanır. “5x36” tirajlı lotereya biletinin hər bir variantının qiyməti 20 (iyirmi) qəpik müəyyən edilmişdir.

“5/36” tirajlı lotereyasının uduş fondunun oynanılması lototron vasitəsilə həyata keçirilir. Lototronda 1-dən 36-dək nömrələnmiş şarlar yerləşdirilir. Şarlar qarışdırılaraq təsadüf prinsipinə əsasən lototrondan 5 (beş) ədəd şar çıxarılır. Lototrondan çıxarılmış 5 (beş) ədəd şarın nömrələri oyunda iştirak edən lotereya biletində qeyd olunmuş oyun variantlarındakı 5 (beş), 4 (dörd) və ya 3 (üç) nömrə ilə uyğun gəldikdə həmin bilet(lər) uduşlu sayılır. Lotereya biletinin üzərindəki variantlardan bir neçəsi uduşlu olduğu halda, uduşlar cəmlənir.

Lotereya biletlərinin satışı (variantların qəbulu) “LottoYayım” MMC, “Caspiantech” MMC, “Mobil loto” **www.azerlotereya.com** veb saytı vasitəsilə həyata keçirilir. Nəzərinizə çatdırmaq istəyirik ki, Azərlotereya” ASC-nin yeni innovativ layihəsi olan Mobil tətbiq (Mobil application) yaxın günlərdə lotereya həvəskarlarının istifadəsinə veriləcəkdir. “Mobil tətbiq” proqram təminatını “Android” və “İOS” əməliyyat sistemləri ilə təchiz olunmuş smartfonlar vasitəsilə “AppStore” və ya “Playmarket”dən yükləyə bilərsiniz. “Mobil tətbiq” vasitəsilə biletləri yoxlamaq, tirajların nəticələri ilə tanış olmaq və lotereya biletlərini əldə etmək mümkündür.




Bildirmək istəyirik ki, 2019-cu ilin 8 ayı ərzində 5/36 tirajlı lotereyasında 4 ədəd ümumi məbləği 427 800 manat təşkil edən “CekPot” pul mükafatı qazanılmışdır. Bunlardan 220 221, 126 368, 25 672 və 55 539 manat olmaqla CekPot pul mükafatı lotereya qaliblərinə ödənilmişdir.

“Azərlotereya” ASC hər bir lotereya iştirakçısına uğurlar arzulayır.

Lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

***Sizin “Azərlotereya”***


# Minaatan bölmələri döyüş atışlı taktiki-xüsusi təlimə cəlb olunub







Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının minaatan bölmələri ilə döyüş atışlı taktiki-xüsusi təlim keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonunda atəş mövqelərini tutan bölmələr minaatan qurğularından döyüş atışlarını yerinə yetiriblər.

Planlı və plandan kənar hədəfləri məhv edən heyətlər qarşıya qoyulmuş məqsədlərə nail olublar.

# Beynəlxalq aləm

## “British Airways”in pilotları tətilə başladılar



Dünən “British Airways”in pilotları Böyük Britaniya aviaşirkətinin tarixində ilk ümumi tətilə başlamışlar. Şirkət ölkə aeroportlarından reyslərin, demək olar ki, hamısını ləğv etmişdir. Məlumata görə, “British Airways” 48 saat ərzində təqribən 1700 uçuş həyata keçirir. İkigünlük tətil təxminən 300 min sərnişinin səfər planını poza bilər.

Etiraz aksiyasında 4,3 min pilotun hamısı iştirak edir. Onların tələbi əməkhaqqını artırmaqdır. Pilotların BALPA həmkarlar ittifaqından bildirmişlər ki, tətilin bir günü “British Airways”ə 40 milyon funt sterlinqə başa gələcək, halbuki həmkarlar ittifaqı ilə aviaşirkət arasında əməkhaqqının artırılması ilə əlaqədar fikir ayrılığı 5 milyon funt sterlinqdir. BALPA oxşar etiraz aksiyalarını sentyabrın 27-nə və ola bilsin ki, dekabrın axırlarına planlaşdırır.

“British Airways”in rəhbərliyi ilə BALPA arasında danışıqlar doqquz aydır davam edir. Həmkarlar ittifaqı iyulda aviaşirkətin pilotların əməkhaqqını 3 il ərzində 1,5 faiz artırmaq təklifini rədd etmişdir. “British Airways”in məlumatına görə, bu təklif çərçivəsində pilotlar ildə təxminən 200 min funt sterlinq maaş ala bilərdilər.

## Fransada istidən 1500 nəfər ölüb



Cari ilin iyun və iyul aylarında Fransada bərk isti nəticəsində təxminən 1500 nəfər vəfat etmişdir. Ölənlərin yarısının yaşı 75-dən çoxdur. Onların arasında uşaqlar da var. Bu barədə Səhiyyə naziri Anyes Büzen məlumat vermişdir.

İstidən ölənlərin ümumi sayı 2003-cü ilin yayında qeydə alınmış göstəricidən 10 dəfə çox olmuşdur. Həmin il yüksək temperatur 15 min nəfərin həyatına son qoymuşdur. Bu yay Fransa iki ifrat isti dövrü yaşamışdır. İyunun 28-də havanın temperaturu rekord həddə - 46 dərəcəyə çatmışdır. Göstərici ölkənin cənubunda - Verarq şəhərində qeydə alınmışdır. Bundan başqa, ölkənin cənubunda digər yaşayış məntəqələrində temperatur 45 dərəcəyə çatmışdır.

2003-cü ilin isti yayından sonra hökumət çoxsaylı təhlükəsizlik tədbirləri görmüşdür. Paris metrosunda bir neçə dildə yazılmış elanlar insanlara xəbərdarlıq edirdi ki, kifayət qədər su içmək, qocalara və uşaqlara xüsusi diqqət yetirmək lazımdır.

## Amazoniyada meşə kəsimi iki dəfə artıb



Amazoniyanın Braziliya hissəsində meşə kəsimi təxminən iki dəfə artmışdır. Cari ilin ilk səkkiz ayında regionda 6404 kvadratkilometrlik meşə kəsilmişdir ki, bu da 2018-ci ilin eyni dövrünün göstəricisi (3367 kvadratkilometr) ilə müqayisədə 91,9 faiz çoxdur. Bu barədə Braziliya Milli Kosmik Tədqiqatlar İnstitutu məlumat vermişdir.

Təkcə ötən ay Amazon meşələrinin təqribən 1700 kvadratkilometri məhv edilmişdir ki, bu da keçən ilin eyni ayındakından (526 kvadratkilometr) üç dəfə çoxdur. Ekspertlər ehtimal edirlər ki, cari ilin sonunadək Amazoniyada meşə kəsimi göstəricisi 10 min kvadratkilometrə çatacaq.

## Daha bir Avropa ölkəsi Suriyaya qoşun göndərəcək

Danimarka Silahlı Qüvvələri İŞİD terrorçu təşkilatı ilə mübarizədə ABŞ-ın başçılıq etdiyi koalisiyaya kömək göstərmək üçün Suriyaya hərbi kontingent göndərəcək. Bu barədə ABŞ Müdafiə Nazirliyinin nümayəndəsi Conatan Hoffman məlumat vermişdir.

Hoffman qeyd etmişdir ki, Birləşmiş Ştatlar Danimarka hökumətinin Suriyaya hərbçi göndərmək qərarını alqışlayır. O əlavə etmişdir ki, “danimarkalı tərəfdaşlarımız regionda təhlükəsizliyi və sabitliyi təmin etmək üçün Suriyanın şimal-şərqində yerləşən ABŞ qoşunları ilə əməkdaşlıq edəcək”.

Danimarka Müdafiə Nazirliyinin internet saytı xəbər verir ki, beynəlxalq koalisiyaya kömək hələlik Suriyadakı hərbi bazaya 14 hərbi həkim göndərməkdən ibarət olacaq. Ölkə hökuməti həmçinin hərbi donanmasının bir hissəsini Hörmüz boğazına göndərmək imkanını nəzərdən keçirir.

## “Dorian” Kanadanı vurdu

“Dorian” qasırğası srağagün gecə Kanadanın Atlantik okeanı sahillərindəki vilayətlərini vuraraq təxminən 500 min ev təsərrüfatını və müəssisəni işıqsız qoymuşdur. Bu barədə yerli CBC telekanalı xəbər verir. Telekanalın məlumatına görə, qasırğanın zərbəsinə Yeni Şotlandiya, Nyu Bransuik vilayətləri, həmçinin Şahzadə Eduard adası məruz qalmışdır. Nəticədə ağaclar yıxılmış, elektrik xətləri qırılmışdır. Hazırda “Dorian” şərq istiqamətində hərəkət edir və tropik siklon kimi qiymətləndirilir.

Bir müddət əvvəl qasırğanın fəsadları ABŞ-ın Cənubi və Şimali Karolina ştatlarında hiss olunmuşdu. Təqribən 400 min yaşayış evi və müəssisə işıqsız qalmışdı. Ötən həftə “Dorian” Baham adalarını vurmuşdur. 44 nəfər təbii fəlakətin qurbanı olmuşdur. CNN telekanalının xəbərinə görə, yüzlərlə adam hələ də itkin sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparatın əməkdaşı Vəsilə Əsgərəlizadəyə atası

**AZƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in İcraiyyə Komitəsi Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi

**CAHANGİRİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aydın Əliyev Müdafiə nazirinin birinci müavini Nəcməddin Sadıxova bacısı

**SİMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki Apelyasiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Rafail Əliyevə anası

**GÜLÜM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9033
Sifariş 3005
Qiyməti 40 qəpik